**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**akad. H.Ə.ƏLİYEV adına COĞRAFİYA İNSTİTUTU**

*Əlyazması hüququnda*

# TAHİROVA HİCRAN MİRƏHMƏD QIZI

# MİQRASİYANIN DEMOQRAFİK PROSESLƏRƏ TƏSİRİNİN İQTİSADİ – COĞRAFİ PROBLEMLƏRİ (NAXÇIVAN MUXTAR RESPUBLIKASININ TIMSALINDA)

İxtisas: 5401.01-İqtisadi coğrafiya

Coğrafiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

# A V T O R E F E R A T I

**Bakı - 2014**

**Dissertasiya işi Bakı Dövlət Universiteti "Coğrafiya" fakültəsinin "Azərbaycan coğrafiyası" kafedrasında yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** Coğrafiya elmlər doktoru, prof.**V.Ə.Əfəndiyev**

**Rəsmi opponentlər:** Coğrafiya elmlər doktoru, prof. **Z.S.Məmmədov**

Coğrafiya elmlər doktoru, **Z.N. Eminov**

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Pedaqoji Universiteti Coğrafiya və ÇH fakültəsinin "İqtisadi coğrafiya və CTM" kafedrası

Dissertasiyanın müdafiəsi **07 fevral 2014-cü il saat 14$^{00}$-da** Azərbaycan Milli Elmlər Akademiyası akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun nəzdində fəaliyyət göstərən D01.091 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1143, Bakı şəhəri, H.Cavid pr. 31, AMEA akademik H. Ə. Əliyev adına Coğrafiya İnstitutu.

Dissertasiya ilə AMEA Coğrafiya İnstitutunun kitabxanasında tanış olmaq olar.

**Rəyləri möhürlə təsdiq olunmuş iki nüsxədə bu ünvana göndərməyiniz xahiş olunur:** AZ 1143, Bakı şəhəri, H.Cavid pr. 31, AMEA akademik H. Ə. Əliyev adına Coğrafiya İnstitutu.

Avtoreferat 06 yanvar 2014-cü ildə göndərilmişdir.

**D01.091Dissertasiya Şurasının**
**elmi katibi, coğrafiya üzrə**
**fəlsəfə doktoru, dosent** **M. S. HƏSƏNOV**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Bəşər tarixinin inkişafında çox mühüm rol oynayan miqrasiya proseslərinin elmi-metodiki, elmi-təcrübi, iqtisadi-coğrafi aspektlərinin öyrənilməsi mühüm vəzifə kimi qarşıda durur. Bu zaman problemlərin nəzəri-metodoloji təhlilinə, anlayışların və kateqoriyaların dəqiqləşdirilməsinə ehtiyac yaranır.

Miqrasiyanın nizamlanması bütün ölkələrdə daxili siyasətin əsas istiqamətlərindən biridir. Müasir dövrdə heç bir ölkə düşünülmüş miqrasiya siyasətini formalaşdırmadan öz milli təhlükəsizliyini, insan və əmək ehtiyatlarının optimal balansını, davamlı sosial–iqtisadi yüksəlişini təmin edə bilməz. Bütün bunlar isə öz növbəsində obyektiv, nəzəri və təcrübi cəhətdən mükəmməl işlənmiş miqrasiya konsepsiyası və dövlət proqramlarının yerinə yetirilməsinə əsaslanır.

Əhalinin miqrasiyası məhsuldar qüvvələrin inkişaf prosesinin ünsürlərindən biri olub, sosial–iqtisadi amillərlə əlaqədar baş verir. Hazırda iqtisadiyyatın inkişafına əsaslanan əhalinin miqrasiyasının bütün prosesləri geniş vüsət almış və təkcə bir ölkə hüdudları daxilində deyil, daha qlobal miqyasda baş verir. Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında əhalinin başqa regionlara miqrasiyasının səbəbi həm sosial şəraitin çətinliyi, həm də qazanc üçün iş yerləri ilə təmin olunma tələbatıdır. Yaranmış vəziyyət demoqrafik proseslərə ciddi təsir göstərir. Bunları nəzərə alaraq tədqiqat işinin sosial-iqtisadi cəhətdən aktual olduğunu söyləmək olar.

Hər il respublikada miqrasiya prosesində on minlərlə əhali iştirak edir. Respublikamızın müasir sosial–iqtisadi və demoqrafik inkişaf xüsusiyyətləri əhalinin miqrasiya prosesinin elmi cəhətdən tədqiq edilməsini mühüm vəzifəyə çevirmişdir.

Problemin aktuallığını və onun öyrənilməsinin vacibliyini göstərən mühüm amillərdən biri 1990-cı ildən başlayaraq Naxçıvan Muxtar Respublikasında yaranmış sosial-iqtisadi vəziyyətlə əlaqədar əhalinin bir qisminin xarici ölkələrə getməsi, kənd yerlərindən əhalinin şəhərlərə köçməsi və s.-dir. Bu prosesin mənfi təsirlərinin qarşısının alınması üçün bir çox tədbirlər həyata keçirilmiş, mövcud müəssisələrin əksəriyyətinin fəaliyyəti bərpa edilmiş, yeni müəssisələr tikilib istifadəyə verilmiş, yeni iş yerləri açılmış, əhalinin əmək haqları və təqaüdləri artırılmış, kənd yerlərinin sosial bazası yaxşılaşdırılmış, nəticədə kortəbii miqrasiya halları xeyli azalmışdır. Mövzunun tədqiqini aktuallaşdıran amillər arasında

miqrasiya proseslərinin demoqrafik vəziyyətə təsiri (əhalinin cins, yaş tərkibinin dəyişilməsi və s.), regionun iqtisadi-coğrafi, geosiyasi mövqeyi də xüsusi qeyd olunmalıdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti müasir dövrdə Naxçıvan MR-də miqrasiya prosesləri, bu prosesi yaradan amillər, miqrasiyanın demoqrafik proseslərə təsiri, onun tənzimlənməsi və idarə olunması istiqamətlərinin müəyyən edilməsidir.

**Predmeti** isə Naxçıvan Muxtar Respublikasında miqrasiyanın demoqrafik proseslərə təsirinin iqtisadi-coğrafi problemlərinin öyrənilməsi və bu problemlərin həlli yollarının işlənib hazırlanmasıdır.

**Mövzunun tədqiqat səviyyəsi.** Miqrasiya prosesləri iqtisadi-coğrafi aspektdə nisbətən az öyrənilmiş sahədir. Miqrasiyanın nəzəri və metodoloji məsələlərinə dair Rusiya, Ukrayna və Mərkəzi Asiya respublikalarının alimləri geniş tədqiqat işləri aparmışlar. Onlardan, Y.N. Pertsik, B.S. Xorev, V.N. Çapek, Q.İ. Starçenko, J.A. Zayonçkovskaya, V.A. İonsev V.İ. Perevedensev, T.M. Караханова və b. göstərmək olar.

Qərb ölkələrinin tanınmış tədqiqatçılarından P. Byukenen, S. Hantinqton, A. Romanyük, İ. Herder, Z. Bjezinski, L. Levi və L. Andersonun əsərlərində geosiyasi və geoiqtisadi problemlər, etnik münaqişələr, əhalinin miqrasiyası və demoqrafik proseslərlə bağlı məsələlər geniş şəkildə şərh edilmişdir.

Miqrasiyanın mühüm növlərindən biri də milli-etnik və ərazi iddiaları zəmnində baş verən məcburi miqrasiyalardır. Azərbaycan tədqiqatçılarından R.Ə. Mehdiyev, H.M. Rəcəbli, M.Ə. Sərdarov, F.N. Abdullayev, S.S. Mehbalıyev, P.K. İskəndərov və başqaları tərəfindən müasir dövrün milli-siyasi, sosial və beynəlxalq məsələlərinə dair sanballı tədqiqat işləri aparılmış və məcburi miqrasiya proseslərini öyrənmişlər.

Miqrasiya və demoqrafik proseslərlə bağlı problemlərin yaranmasında daha qabarıq müşahidə olunan mühüm səbəblərdən biri də sosial-iqtisadi amillərdir. Azərbaycan tədqiqatçılarından Ə.M. Hacızadə, A.A. Nadirov, Ş.M. Muradov, Ş.Y. Göyçaylı, V.Ə. Əfəndiyev, N.A. Babaxanov, T.G. Həsənov, E.Q. Mehrəliyev, Z.S. Məmmədov, A.A. Qurbanzadə, Z.N. Eminov, N.H. Əyyubov, S.Q. Nağıyev, R.İ. Umudova və b. bu problemlərə həsr olunmuş əsərlərində miqrasiya məsələlərinə yer ayrılmışdır.

Lakin müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinin istiqamətləri, səbəbləri, növləri, ona təsir edən amillər, miqrasiya siyasətinin təkmilləşdirmə istiqamətləri və s.

öyrənilməsinə dair elmi tədqiqat işinin kifayət qədər olmamasını nəzərə alaraq, müəllif dissertasiyada bu məsələləri tədqiqat obyekti kimi götürmüşdür.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın əsas məqsədi SSRİ-nin dağılması və erməni təcavüzü ilə əlaqədar blokada vəziyyətinə düşmüş Naxçıvan Muxtar Respublikasında yaranmış sosial-iqtisadi vəziyyətin doğurduğu miqrasiya proseslərinin demoqrafik proseslərə təsirinin araşdırılması, beynəlxalq təcrübə əsasında həmin prosesin idarə olunması yollarının müəyyənləşdirilməsi, burada əldə olunan nəticələrin perspektiv inkişafda nəzərə alınmasıdır.

Bununla əlaqədar olaraq dissertasiya işində aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

-dünyada müxtəlif dövrlərdə miqrasiya axınlarının istiqamətləri, regionlararası miqrasiyanın digər proseslərə təsiri, müasir dövrdə miqrasiya proseslərinin intensivləşməsinə təsir edən amillərin təhlili və qabaqcıl ölkələrin miqrasiya sahəsində təcrübəsinin ABŞ, Avropa, Asiya və Şərq regionlarının timsalında öyrənilməsi;

-Naxçıvan Muxtar Respublikasının respublikalararası miqrasiya proseslərində yeri, onların demoqrafik vəziyyətə təsirinin müəyyənləşdirilməsi;

-NMR-də əhalinin məskunlaşması və demoqrafik vəziyyətinin tarixi inkişaf mərhələləri, müasir dövrü, əhalinin say dinamikasına təsir edən amillərin (miqrasiya, demoqrafik, sosial və iqtisadi və s.) təhlil olunması və onların nizamlanması istiqamətlərinin müəyyən edilməsi;

-NMR-də daxili miqrasiyanın ("kəfkirvarı miqrasiya" və əhalinin kənd yerlərindən şəhərlərə axını və s.) istiqamətləri və səbəblərinin tədqiq edilməsi;

-NMR-də miqrasiya və demoqrafik proseslərin tənzimlənməsində miqrasiya siyasətinin həyata keçirilməsi, konsepsiyalar və dövlət proqramlarında onun əsas istiqamətlərinin tətbiqi yollarının hazırlanması.

**Tədqiqatın nəzəri və metodoloji əsaslarını** Azərbaycan Respublikasının, MDB və xarici ölkələrin alim və tədqiqatçılarının miqrasiya və demoqrafik proseslərə dair əsərləri, bu sahədə Azərbaycan Respublikasının Regionlarının Sosial–İqtisadi İnkişafı Dövlət Proqramları, Məşğulluq Strategiyası, miqrasiya siyasətinin təkmilləşdirilməsi konsepsiyası, ARDSK-nin və Naxçıvan Muxtar Respublikasının aidiyyatı orqanlarının (Daxili İşlər Nazirliyinin, Miqrasiya Xidməti Şöbəsinin və s.) məlumatları təşkil edir.

Tədqiqatın aparılmasında statistik, müqaisəli təhlil, sorğu, sistem-struktur, xəritələşdirmə və s. üsullardan istifadə edilmişdir.

**Dissertasiyanın informasiya bazasını** istifadə edilmiş ədəbiyyat, elmi tədqiqat əsərləri, BDU-nun, AMEA-nın və xarici ölkələrin müvafiq sahədə nəşr edilmiş elmi-kütləvi, elmi-hesabat, ədəbiyyat məlumatları, Rusiya Federasiyasının, Azərbaycan Respublikasının, eləcə də dünyanın bir sıra alimlərinin və tədqiqatçılarının, respublika və beynəlxalq simpoziumların elmi-praktiki konfrans materialları, ARDSK-nin məlumatları və müəllifin tədqiqatından əldə olunan nəticələr təşkil edir.

**Müdafiə olunan müddəalar.**

1.Naxçıvan Muxtar Respublikası əhalisinin məskunlaşması, demoqrafik inkişafın tarixi mərhələləri və müasir dövrdə baş verən əsas meyllər;

2.Naxçıvan Muxtar Respublikasında xarici miqrasiya proseslərinin istiqamətləri və bu prosesi yaradan amillərin müəyyənləşdirilməsi;

3.Miqrasiyanın demoqrafik proseslərə təsirinin iqtisadi-coğrafi xüsusiyyətlərinin müəyyənləşdirilməsi;

4.Naxçıvan Muxtar Respublikasında daxili miqrasiyanın istiqamətlərinin təhlili və onun tənzimlənməsində miqrasiya siyasətinin rolu.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra ilk dəfə Naxçıvan Muxtar Respublikasının timsalında əhalinin miqrasiyası və onun demoqrafik proseslərə təsirinin iqtisadi-coğrafi problemləri tədqiqat obyekti kimi öyrənilmişdir. İlk dəfə olaraq NMR-də "kəfkirvarı miqrasiya" müəllif tərəfindən kompleks şəkildə tədqiq olunmuşdur. Bununla yanaşı aparılmış tədqiqatın yeniliklərinə aşağıdakıları da aid etmək olar:

1.Naxçıvan Muxtar Respublikası əhalisinin xarici miqrasiya proseslərində iştirakı və onun səbəbləri müəyyənləşdirilmişdir;

2.Naxçıvan Muxtar Respublikasında demoqrafik proseslərin inkişaf xüsusiyyətləri və bu prosesə təsir edən miqrasiya iqtisadi-coğrafi aspektdə öyrənilmişdir;

3.Naxçıvan Muxtar Respublikasında daxili miqrasiyanın istiqamətləri və səbəbləri tədqiq edilmişdir;

4.Naxçıvan Muxtar Respublikasında miqrasiyanın demoqrafik proseslərə təsirinin mənfi nəticələrinin aradan qaldırılması və tənzimlənməsi yolları müəyyənləşdirilmişdir.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Dissertasiya işində miqrasiyanın demoqrafik proseslərə təsirinin iqtisadi-coğrafi problemləri ətraflı araşdırılaraq konkret elmi nəticələr alınmış və həmin problemlərin aradan qaldırılması üçün elmi əsası olan tövsiyələr verilmişdir. Əldə olunan nəticələr Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinin tənzimlənməsində, bununla əlaqədar demoqrafik problemlərin həll edilməsində və məskunlaşmanın nizamlanmasında əhəmiyyətli rol oynaya bilər.

Tədqiqat işində alınan nəticələr və tövsiyələr Naxçıvan Muxtar Respublikası ilə yanaşı, digər oxşar problemləri olan regionlar üçün də təcrübi əhəmiyyətə malik ola bilər.

**İşin aprobasiyası**. Dissertasiyanın əsas müddəaları və nəticələri aşağıdakı elmi, elmi-praktiki konfranslarda müzakirə olunmuşdur:

- Doktorantların və gənc tədqiqatçıların XVI respublika elmi konfransı. Bakı, 2012;
- "Qloballaşma və coğrafiya" mövzusunda beynəlxalq elmi-praktiki konfrans. Bakı, 2012;
- "Ekologiya, təbiət və cəmiyyət problemləri" mövzusunda II beynəlxalq elmi konfrans. Bakı, 2012.
- "Heydər Əliyev və Azərbaycan coğrafiya elminin inkişafı" mövzusunda respublika elmi konfransı. Bakı, 2013.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya işi Giriş, 4 fəsil, nəticə, ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Tədqiqatın əyaniliyini artırmaq üçün işdə 31 cədvəl, 6 xəritə-sxem verilmişdir. Ona 134 mənbədən ibarət ədəbiyyat siyahısı da daxildir. İşin ümumi həcmi 152 kompüter çap səhifəsini əhatə edir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı, məqsəd və vəzifələri, nəzəri və metodoloji əsasları, müdafiə olunan müddəalar, elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti barədə məlumat verilmişdir.

Dissertasiyanın **"Əhali miqrasiyasının öyrənilməsinin nəzəri-metodoloji əsasları"** adlanan birinci fəslində miqrasiyanın yaranması, miqrasiya anlayışının meydana gəlməsi, müxtəlif dövrlərdə miqrasiya axınlarının istiqamətləri, regionlararası miqrasiya, müasir dövrdə miqrasiya proseslərinin intensivləşməsinə təsir edən amillər, ayrı-ayrı ölkələrin miqrasiya siyasəti, tədqiqatçıların miqrasiyanın müasir vəziyyəti və gələcəyi haqqındakı fikirləri təhlil olunmuşdur.

Əhalinin miqrasiyası demoqrafların, iqtisadçıların, psixoloqların, siyasətçilərin, tarixçilərin və başqa sahələr üzrə mütəxəssislərin diqqətini cəlb edir. Bu onunla izah olunur ki, miqrasiya mahiyyət etibarı ilə bir çox prosesləri özündə inteqrasiya etməklə cəmiyyətin ümumi inkişafında mühüm rol oynayır.

Tədqiqatçılara görə miqrasiyanın elmi izahı ilk dəfə XIX əsrdə E. Ravenşteyn tərəfindən verilmişdir və onu "insanın öz yaşayış yerini daimi yaxud müvəqqəti dəyişməsi" kimi şərh etmişdir.

Tarixin müxtəlif dövrlərində miqrasiya axınlarının istiqaməti coğrafi məzmun baxımından fərqli olmuşdur. XVI-XIX əsrlərin müstəmləkəçilik dövründə miqrasiya axınlarının istiqaməti Afrikadan Amerikaya, 1846–1939–cu illərdə isə miqrasiya dalğasının mənbəyi Avropa olmuşdur. XX əsrin ikinci yarısı və XXI əsrin əvvəllərində miqrasiyanın istiqaməti dəyişilmiş və Avropa miqrant göndərən regiondan miqrantları qəbul edən məkana çevrilmişdir. Dünyada miqrantların ən çox üz tutduğu ölkələr isə ABŞ, Kanada və Avstraliya olmuşdur.

Qloballaşma, keçmiş SSRİ–də gedən transformasiya prosesləri, Avropada sosialist düşərgəsinin dağılması və s. amillər son dövrün miqrasiya axınlarını sürətləndirdi. XXI əsrin əvvəllərində, statistikaya görə dünyada beynəlxalq miqrantların sayı 300 milyon nəfərə çatmışdır.

Beynəlxalq miqrasiya proseslərinin gələcək üçün mümkün sosial–iqtisadi və demoqrafik nəticələri hələlik nisbətən az təhlil olunmuş problemlərdəndir. İlk olaraq qabaqcıl ölkələrdə alimlər "Şərqdən–Qərbə", "Cənubdan-Şimala" miqrasiya axınının güclənməsinə dair "həyacan təbili"ni çalmağın vaxtı olduğunu qeyd etmişlər.

Kanadalı demoqraf–alimlər A. Romanyük və M. Termot əhali artımının "demoqrafik böhran" vəziyyətində olan ölkələrdə gələcək taleyin miqrantlar tərəfindən həll ediləcəyini proqnozlaşdırırlar.

Amerikalı alim P. Erlik miqrasiyanın doğurduğu çox çalarlı (iqtisadi, siyasi, sosial–mədəni, etnik, demoqrafik və s.) nəticələri "bəşəriyyəti partlada biləcək populyasiya bombası" adlandırır.

Müasir dünya təcrübəsi sübut edir ki, tənzimlənməyən miqrasiya prosesləri ölkənin qlobal rəqabətə davamlılığının əsaslarını sarsıda, kütləvi işsizliyin, sosial və demoqrafik gərginliyin, kriminogen vəziyyətin pisləşməsinin şərtlərindən birinə çevrilə bilər.

Mövcud beynəlxalq təcrübəni təhlil edərkən ilk baxışdan Amerikanın ən böyük tarixi təcrübəyə malik olmasına baxmayaraq, məsələn, Azərbaycan kimi immiqrasiya, emiqrasiya istiqamətlərində, həm də tranzit məkan kimi "üç qat miqrasiya zənciri"nə malik olmayan, bu ölkədə ümumiyyətlə, emiqrasiya probleminin olmadığı aşkara çıxır.

ABŞ–da miqrasiyanın tənzimlənməsinə dair 200 ildən çox olan təcrübə ilə tanışlıq göstərir ki, burada miqrasiya siyasətinin istiqamətlərində əsas mövqelər bunlardır: immiqrasiya rejiminin liberallaşması; qeyri–qanuni miqrasiyanın leqallaşması və onun tamamilə qadağan edilməsi; intellektual miqrantların cəlb edilməsi və onlara üstünlük verilməsi; miqrantlara ölkə vətəndaşları kimi eyni hüquqların verilməsi və s.

Avropanın qabaqcıl ölkələri artıq yarım əsrdən çoxdur ki, miqrasiya siyasətinin həyata keçirilməsində birgə mövqedən çıxış edirlər. Bununla yanaşı müxtəlif ölkələrin miqrasiya təcrübəsi də mövcuddur. Qərbi Avropada miqrasiya siyasəti əsasən müvəqqəti yerdəyişmə məzmunlu proses kimi qəbul edilir və son 30 il ərzində əsas məhdudlaşdırıcı xarakter daşımışdır.

Asiya miqrasiya sisteminin həm sturuktur xarakteristikası, həm də miqrasiyanın istiqaməti, intensivliyi, miqyası və növləri, təsnifat baxımından müəyyən özəlliklərə malikdir.

Asiyanın İEÖ olan Yaponiya ada dövləti olmasına baxmayaraq miqrasiya siyasətini özünün əhali probleminə müvafiq olaraq həll etməyə çalışır. Tədqiqatlara görə ölkədə işçi qüvvəsi ilə təminat probleminin həllində Yaponiyanın özünəməxsus "qocalıq fəlsəfəsi" siyasətinin olması mühüm rol oynayır. Müasir dövrün "Asiya möcüzəsi" hesab olunan Koreya Respublikası, Sinqapur, Malayziya, Filippin və İndoneziyada miqrasiyanın bütün növ istiqamətləri əsasən iqtisadi faktorla əlaqəlidir. Müasir dünyada ən optimal miqrasiya siyasətinin modeli Yaxın Şərq ölkələrində həyata

keçirilir. Bu regionda immiqrantlar böyük əksəriyyət təşkil edir və miqrasiya siyasəti Qərbi Avropada və Rusiyada olduğundan daha yaxşı aparılır.

MDB məkanında Rusiya ən çox miqrant qəbul edən ölkədir. Rusiya MDB miqrasiya sistemində həm miqrant qəbul edən, həm göndərən, həm də tranzit ölkə kimi mövcuddur.

XX əsrin sonu, XXI əsrin əvvəllərində isə miqrasiyanın strukturu və motivləri dəyişməyə başladı. İqtisadi faktorlar etnomilli, siyasi-ideoloji amillərlə müqayisədə önə çıxdı. MDB-də miqrasiya siyasətinin təşəkkülünün əsas fərqi onda idi ki, burada klassik immiqrasiya ölkələrindən fərqli olaraq problem 90-cı illərdə formalaşmış, getdikcə kəskinləşən səviyyəyə çatmışdır.

Son bir əsr ərzində Azərbaycan Respublikasında miqrasiya prosesləri I və II dünya müharibələrinin, xarici müdaxilə, Ermənistanın xalqımıza qarşı dövlət siyasəti çərçivəsində həyata keçirdiyi soyqırım, etnik təmizləmə və zorakı miqrasiya proseslərinin təsiri altında formalaşmışdır.

Azərbaycan Respublikasının tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının iqtisadi-coğrafi və geosiyasi mövqeyi, strateji əhəmiyyəti, siyasi, iqtisadi, mədəni və s. əlaqələr üçün optimal tranzit məkan olması burada özünəməxsus miqrasiya proseslərini formalaşdırır.

Sovetlər dönəmində respublikaların miqrasiya spesifikası nəzərə alınmırdı. Ümumi SSRİ-də aparılan qapalı miqrasiya siyasəti bütün ittifaq respublikaları kimi Azərbaycana, o cümlədən də Naxçıvan Muxtar Respublikasına şamil olunurdu.

Müstəqillik qazandıqdan sonra əldə etdiyimiz nailiyyətlərdən biri də miqrasiya sahəsindəki dəyişiklik və sərbəstlik oldu. NMR-in İİR və Türkiyə ilə sərhədlərinin açılması, bu ölkələrə bilavasitə çıxışının olması burada yeni miqrasiya istiqamətlərinin formalaşmasına və bununla əlaqədar olaraq demoqrafik vəziyyətin dəyişməsinə şərait yaratdı. Bu proseslərin tənzimlənməsi sahəsində yeni miqrasiya siyasətinin həyata keçirilməsi və demoqrafik proseslərin nizamlanması zəruridir.

Tədqiqat işinin **"Naxçıvan Muxtar Respublikasında demoqrafik vəziyyətin ərazi fərqləri"** adlanan ikinci fəslində NMR əhalisinin məskunlaşması, demoqrafik vəziyyətinin tarixi inkişaf mərhələləri və müasir dövrü, əhalinin say dinamikası, təbii hərəkət göstəricilərinə miqrasiyanın və digər amillərin təsiri, şəhər və kənd əhalisi üzrə doğum, ölüm və təbii artım proseslərinin təhlili verilmişdir.

Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının cənub-qərbində yerləşir, sahəsi 5,5 min km$^2$-dir (respublika ərazisinin 6,3%), inzibati mərkəzi isə Naxçıvan şəhəridir.Tərkibinə 7 inzibati rayon, 5 şəhər, 8 qəsəbə və 208 kənd daxildir. Bu region geosiyasi mövqeyinə görə Azərbaycan Respublikasının sərhədlərindən kənarda yerləşir, hər tərəfdən xarici ölkələr ilə əhatələnmişdir. O, qərbdən Türkiyə ilə 15 km, cənubdan və cənub-qərbdən İran ilə 204 km, şimaldan və şərqdən Ermənistan ilə 246 km həmsərhəddir.

NMR qədim insanların məskunlaşdığı, özünəməxsus demoqrafik xüsusiyyyətləri olan regiondur. 2012–ci ilin əvvəlində burada əhalinin sayı 418,5 min nəfər (respublika əhalisinin 4,6%) olmuşdur. Əhalinin 29,1%-i şəhər yerlərində, 70,9%-i kənd yerlərində yaşayır. Onların 49,8%-ni kişilər, 50,2%-ni isə qadınlar təşkil edir.

Burada əhalinin məskunlaşması və onun demoqrafik vəziyyəti tarixi inkişafın müxtəlif mərhələlərində həmin dövrlərin malik olduğu sosial–iqtisadi və siyasi şəraitdən asılı olaraq daimi inkişaf edib dəyişmişdir**.** MR-də əhalinin miqrasiyası bütün dövrlərdə müşahidə olunmuş və demoqrafik proseslərin formalaşmasında əhəmiyyətli rol oynamışdır.

Qeydiyyatın aparıldığı ilk dövrlərdə, yəni 1897–1924–cü illərdə əhalinin sayca azalmasına 1905–1906–cı və 1915–1918–ci illərdəki erməni–müsəlman qırğınları, Naxçıvan ərazisinin bir hissəsinin Ermənistana qatılması, Sovet hakimiyyətinin qurulduğu ilk illərdə əhalinin bir qisminin SSRİ-nin və Azərbaycan SSR–nin iri şəhərlərinə daimi yaşamağa, işləməyə, təhsil almağa köçüb getmələri və s. təsir etmişdir.

1939–1950–ci illərdə MR–də əhalinin sayının azalması isə Böyük Vətən müharibəsinin törətdiyi mənfi təsirlərlə bağlı olmuşdur. Onu da qeyd etmək lazımdır ki, MR–də əhalinin ən sürətli orta illik artımı XX əsrin 60–70–ci illərinə təsadüf etmişdir. Belə ki, 1960–cı ildə əhalinin hər min nəfərinə düşən doğum əmsalı 54,0 nəfər, təbii artım əmsalı 44,6 nəfər olmuşdur.

1990–1999–cu illərin sosial–iqtisadi çətinliklərinə baxmayaraq, bu dövrdə də MR-də əhalinin sayı 15,2% artaraq 307,2 min nəfərdən 353,9 min nəfərə çatmışdır. Fikrimizcə bu vəziyyət mövcud sosial–demoqrafik amillərlə yanaşı, bir tərəfdən də MR–in Ermənistan tərəfindən blokadaya alınması ilə əlaqədar əhalinin miqrasiyası amili ilə bağlıdır. 1999-2009-cu illərdə MR–də əhalinin doğum səviyyəsinin azalmasına bir sıra sosial, iqtisadi, demoqrafik, miqrasiya və urbanizasiya prosesləri, əhalinin maddi və mədəni həyat səviyyəsinin dəyişilməsi, ailələrdə uşaqların sayının

nizamlanması, nikahların və boşanmaların sayındakı dəyişikliklər və s. təsir göstərmişdir.

Naxçıvan Muxtar Respublikasında demoqrafik materialların uzun müddətli təhlili göstərir ki, əhalinin təbii artımı ümumi respublika göstəricilərinə nisbətən burada zəif templə azalmışdır.

Naxçıvan Muxtar Respublikasında əhalinin sayının intensiv artmasının başlıca səbəbi burada təbii artımın yüksək olmasıdır. Belə ki, hələ 30 il əvvəldən (qadınlar 50,8%) indiyə qədər (qadınlar 50,2%) əhalinin cins tərkibində nəzərə çarpan dəyişiklik müşahidə olunmamışdır. Buna səbəb isə Muxtar Respublikanın blokada şəraitində yerləşməsi və bununla əlaqədar olaraq miqrasiya proseslərinin Azərbaycan Respublikanın digər regionlarına nisbətən az olmasıdır. Şərur və Naxçıvan şəhərində əhalinin cins tərkibi digər inzibati rayonlara nisbətən daha çox pozulmuşdur. Buna səbəb isə Naxçıvan şəhərində əhalinin daha mobil (əhalinin sürətli hərəkət etmək qabiliyyəti) olması və Şərur rayonunun Türkiyə sərhəddinə yaxın olması ilə əlaqədar əmək qabiliyyətli kişilərin bu respublikaya miqrasiya etməsidir.

Bu prosesə əhalinin miqrasiyası güclü təsir göstərir. Miqrasiya edən əhali arasında 80% kişilər, 20% isə qadınlar təşkil edir. Əgər bu proses uzun müddət davam edərsə arzuolunmaz demoqrafik, sosial və iqtisadi nəticələrə gətirib çıxara bilər. Buna görə də (əsasən də kənd yerlərində) qadın və kişilərin mütənasib nisbətinin saxlanılması vacib məsələdir.

Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikasının əhalisi Azərbaycan Respublikasının digər regionlarının əhalisi ilə müqaisədə az mobilliyi ilə seçilir. Buna baxmayaraq son illərdə (1999-2012-ci illər) sosial-iqtisadi vəziyyətin çətinliyi, həyat səviyyəsinin aşağı olması, işsizlik səviyyəsinin yüksək olması əhalinin xarici ölkələrə miqrasiyasını sürətləndirmişdir. Naxçıvan Muxtar Respublikası əhalisinin sayını nəzərə alsaq, hər il tək Türkiyə Respublikasına gedən (orta hesabla 7 min) əmək qabiliyyətli kişilərin əhalinin demoqrafik proseslərinə mənfi təsirini görərik. Əhalinin xarici ölkələrə miqrasiyası demoqrafik proseslərin, o cümlədən cins-yaş strukturunun pozulmasına, nikahların azalmasına (xüsusilə kənd yerlərində gənc kişilərin miqrasiyası nəticəsində ailə qurmamış qadınların sayı artır), bu da öz növbəsində doğum və təbii artım göstəricilərinin azalmasına gətirib çıxarır.

1999-cu ilə nisbətən miqrasiya saldosu 2012-ci ildə 4,5 min nəfər azalmış, müvafiq olaraq təbii artım 5,1 min nəfər və ümumi artım 9,6 min nəfər artmışdır (şəkil 1).




Şəkil 1. Naxçıvan Muxtar Respublikasında təbii artım, miqrasiya saldosu və ümumi artımın illər üzrə göstəriciləri (min nəfər)

Naxçıvan Muxtar Respublikasında əhalinin təbii hərəkətinə təsir edən demoqrafik amillərdən biri də nikah və boşanma prosesləridir. Nikahların azalması və boşanmaların artması mühüm demoqrafik hadisə olub, respublikada olduğu kimi MR-də də əhalinin doğum səviyyəsinə və təbii artımına təsir edən ən mühüm amillərdən sayılır. 2012–ci ildə MR–də cəmi 3458 nikah bağlanmış və 324 nikah pozulmuşdur.

Azərbaycan Respublikasının digər rayonlarına nisbətən NMR–in əhalisi üçün boşanma hallarının ən aşağı səviyyədə olması səciyyəvidir.

Əhalinin təbii hərəkətinin əsas göstəricilərindən biri də doğumdur. MR–də sosial-iqtisadi gərginlik və miqrasiya proseslərinin intensivləşməsi əhalinin təkrar istehsalına öz təsirini göstərmişdir. Bütün bunlar əhalinin təbii hərəkət göstəricilərinin, o cümlədən doğum və təbii artımın azalması ilə nəticələnmişdir.

MR əhalisinin təbii hərəkətinin əsas amillərindən biri də ölüm göstəricisidir. Ölüm doğumdan sonra ikinci ən mühüm demoqrafik prosesdir. Ölüm səviyyəsi bu və ya digər regionun sosial-iqtisadi inkişafını və onun əhalisinin həyat səviyyəsini səciyyələndirən əsas göstəricidir. Ölüm dinamikasının təhlili göstərir ki, tədqiq olunan dövrdə (1999-2012-ci illər) ölüm göstəricisi 5,0-6,1% arasında dəyişmişdir.

Bir yaşa qədər körpə ölümündə əvvəlki illərlə müqaisədə azalmalar müşahidə olunmuşdur ki, bu da son illərdə səhiyyə sahəsinin inkişafı ilə əlaqədardır. İnzibati rayonlar arasında bu göstəricinin yüksək səviyyəsinə

görə Naxçıvan şəhər və Babək rayonu fərqlənir. Digər rayonlarda isə 1 yaşadək körpə ölümünün sayı demək olar ki, eyni olmuşdur.

MR əhalisinin doğum və ölüm səviyyəsindəki dəyişikliklər əhalinin təbii artım dinamikasında öz əksini tapmışdır. Buraya əhalinin miqrasiyası az olduğu üçün təbii artım onun əsas inkişaf amilləridir. Sosial həyat şəraiti artdıqca əhalinin təbii hərəkəti ictimai hadisəyə çevrilərək özünü şüurlu idarə edən faktor olur. Təbii artım göstəricisinə görə MR–in inzibati rayonları arasında da kəskin fərqlər müşahidə olunur.

Naxçıvan Muxtar Respublikasının demoqrafik inkişafında kənd yerləri özünəməxsus yer tutur. Çünki kənd yerlərində əhalinin doğum səviyyəsi şəhər yerlərindən xeyli yüksək olduğundan burada əhalinin təbii artım sürəti əhalinin və əmək ehtiyatlarının sayının dəyişilməsinə əhəmiyyətli təsir göstərir. Öyrənilən dövrdə MR-də şəhər yerlərinə nisbətən kəndlərdə əhalinin doğum səviyyəsi xeyli yüksək olmuş və bütünlükdə əhali arasında olduğu kimi, burada da onun səviyyəsi daim azalmağa doğru meyl etmişdir.

Bu hal, şəhər və kənd yerlərində yaşayan əhalinin yaş-cins quruluşundakı fərqlərlə, urbanizasiya prosesinin güclənməsi və rayon mərkəzlərinin sosial-iqtisadi inkişaf səviyyəsi ilə bağlı olub, gənc oğlan və qızların həmin mərkəzlərə miqrasiya etməsi və burada ailə qurması, oğlanların nisbətən daha çox şəhər yerlərinə miqrasiyası nəticəsində kənd yerlərində gənc qızların ailə qurmasının çətinləşməsi və s. ilə izah edilir.

NMR-də məskunlaşmanın səviyyəsi ölkənin orta göstəricisinə nəsbətən sabit olması ilə fərqlənir. Sabitliyin göstəricisi həm şəhər (17,8 nəfər), həm də kənd (21,1 nəfər) yerlərində əhalinin daha yüksək təbii artımının nəticəsidir. Burada şəhər və kənd əhalisinin üstün artması Azərbaycanın ümumi orta vəziyyətindən yaxşı olmasını göstərsə də, vəziyyət həqiqətdə belə deyil. MR–in anklav vəziyyətdə olması burada əhalinin miqrasiyasını məhdudlaşdırdığı üçün yerlərdə (şəhər və kənd) artım nisbətən üstün getmişdir.

2012–ci ildə Muxtar Respublikada doğulanların 26,3%-i, ölənlərin 29,1%-i və təbii artımın 25,6%-i şəhər yerlərinin, uyğun olaraq 73,7%-i, 70,9% və 74,4%-i kənd məntəqələrinin payına düşmüşdür.

Şəhər yerlərində əhalinin doğum, ölüm və təbii artım göstəricilərinin kənd yerlərinə nisbətən aşağı olmasına urbanizasiya prosesləri əhəmiyyətli təsir göstərir.

MR-in kənd əhalisi ümumi respublikaya və əksər iqtisadi rayonlara nisbətən daha aktiv demoqrafik xarakterə malikdir. Burada dağlıq və

düzənlik kənd yerlərində əhalinin demoqrafik göstəriciləri arasında fərqlər mövcuddur.

Doğum əmsalı düzənlik (Babək, Sədərək, Şərur və Kəngərli) rayonların kənd yerlərində dağlıq rayonların (Şahbuz, Culfa, Ordubad) kənd yerlərindən 27,9% artıqdır.

Ən az uşağın Şahbuz (5,3%) və Sədərək (3,9%) rayonlarında doğulması buranın kənd yerlərində sosial–iqtisadi infrastrukturun lazımi səviyyədə olmamasını və bununla əlaqədar olaraq inzibati rayonların kənd yerlərindən əhalinin miqrasiyası ilə bağlıdır.

Dissertasiyanın **"Naxçıvan Muxtar Respublikasında müasir miqrasiya proseslərinin ərazi fərqləri"** adlanan üçüncü fəslində NMR-in respublikalararası miqrasiya proseslərində iştirakı və xüsusiyyətləri, daxili miqrasiyanın istiqamətləri, səbəbləri və s. tədqiq edilmişdir.

NMR-də miqrasiya proseslərinin özünəməxsus xüsusiyyətləri vardır. Burada əhalinin xarici ölkələrə miqrasiyası əsasən 1992–ci ildən sonra intensiv olmuşdur. Xəritədən göründüyü kimi MR-də əhali miqrasiyasının əsas istiqamətləri MDB ölkələrinə, Türkiyəyə və İran İslam Respublikasına doğru yönəlir (şəkil 2).

Rəsmi statistik məlumatların təhlilindən aydın olur ki, 1992–ci ildən sonra Naxçıvan Muxtar Respublikasından xaricə gedənlərin sayı xeyli çoxalmışdır. Onların da əksəriyyətini gənc azərbaycanlı kişilər təşkil etmişdir. Bunun başlıca səbəbi son vaxtlaradək burada mövcud olan sosial-iqtisadi inkişaf səviyyəsindəki gerilik və müvafiq iş yerlərinin çatışmamasıdır (xüsusilə kənd yerlərində). Bu hal, respublikada həm əhalinin, həm də onun tərkib hissəsində olan, əmək ehtiyatlarının artım sürətinin azalmasına gətirib çıxarmışdır.

Xarici ölkələrə miqrasiya edənlərin əksəriyyəti işləmək məqsədilə gedənlərdir. Bu miqrasiyada iştirak edənlərin 70%-nin əmək qabiliyyətli kişilər olması əhalinin nikah və təbii artım göstəricilərinin azalmasına, həmçinin onların arasında uşaqların, qocaların və qadınların da mühüm yer tutması əhalinin ailəli şəkildə xarici ölkələrə getməsini göstərir ki, bu da MR-də əhalinin say dinamikasına və demoqrafik göstəricilərin səviyyəsinin aşağı düşməsinə səbəb olmuşdur.

NMR Miqrasiya Xidməti Şöbəsinin məlumatına əsasən tədqiq olunan dövr ərzində MR–ə gəlmiş (əsasən əvvəlki yaşayış yerinə qayıtmaq məqsədilə) əhalinin əksəriyyəti MDB ölkələrinin payına düşür. 1999–2010–cu illərdə xarici ölkələrdən NMR–ə gəlmiş 2430 nəfər əhalinin 1583

nəfərini MDB ölkələrindən, cəmi 847 nəfərini isə Türkiyə, İİR və digər xarici ölkələrdən gələnlər təşkil etmişlər.

Qeyd edilən dövrdə Naxçıvan Muxtar Respublikasından xarici ölkələrə gedənlərin (əmək miqrasiyası) sayı isə 85696 nəfər təşkil etmişdir. Onların 784 nəfəri Almaniyaya, 84600 nəfəri Türkiyə Respublikasına gedənlərdir.




Tərtib etdi: H.M.Tahirova

Şəkil 2. Naxçıvan Muxtar Respublikası xarici miqrasiya xəritə-sxemi (2010-cu il).

Son bir neçə ildə əhalinin xarici ölkələrə (xüsusilə də Türkiyə Respublikasına) miqrasiyası azalmış və əvvəlki illərdən fərqli olaraq xarici ölkələrdən də buraya miqrantlar gəlirlər. Gələnlərin 65,1%-i MDB ölkələrindənin payına düşür (xüsusilə də RF-dən).

Bu miqrantların əksəriyyəti milliyətcə azərbaycanlı olub Rusiyada yaşayanlardır. Regiona gələnlərin sayı çoxalmasa da, gedənlərin sayının

azalması nəticəsində son illər miqrasiya saldosu 2 dəfə azalmışdır. Bu da son illərdə sosial-iqtisadi vəziyyətin yaxşılaşması ilə əlaqədardır.

Bütün MDB ölkələrinin əhalisinin əksəriyyəti Rusiya, Ukrayna və Belarusa miqrasiya edirlər. Bu ölkələrdən fərqli olaraq Naxçıvan Muxtar Respublikasının əhalisi əsasən Türkiyə Respublikasına miqrasiya edir. Bunun səbəbi isə Türkiyənin qonşu mövqedə yerləşməsi və bu ölkəyə getmək şərtlərinin (yol xərcləri, nəqliyyat, dil bilmək və s.) digərlərinə nisbətən asan olmasıdır.

Hazırda Muxtar Respublikada sosial–iqtisadi və demoqrafik cəhətdən əhalinin daxili miqrasiya prosesi iki əsas istiqamətdə (əhalinin kəndlərdən şəhərlərə axını və "kəfkirvarı miqrasiya") özünü daha qabarıq şəkildə göstərir. Qeyd etdiyimiz bu iki qanunauyğun hal istər II Dünya müharibəsinədək olan dövrdə, istərsə də sonrakı dövrlərdə səciyyəvi hal kimi mövcud olmuş və demoqrafik proseslərin formalaşmasında daim rol oynamışdır. Lakin respublikamızın müxtəlif ərazilərində (o cümlədən də Naxçıvan MR-də) şəhər və kənd yerlərində sosial–iqtisadi və demoqrafik inkişafda baş verən dəyişikliklərdən asılı olaraq, əhali miqrasiyasının xüsusiyyətləri, yaranma mənbələri, istiqamətləri, miqdarı və s. müxtəlif olmuşdur.

Naxçıvan Muxtar Respublikasında daxili inzibati rayonlarla Naxçıvan şəhəri arasında gedən daimi miqrasiya prosesləri şəhər yerlərinin həddən artıq yüklənməsinə, kənd yerlərində isə əhalinin azalmasına səbəb olmuşdur. Bununla əlaqədar olaraq son illərdə kənd yerlərində demoqrafik göstəricilər (doğum, təbii artım və s.) şəhər yerlərinə nisbətən daha sürətlə azalır.

Tədqiq olunan dövr ərzində Naxçıvan Muxtar Respublikasına daimi yaşamağa gələn əhalinin sayı gedənlərdən az olmuşdur. MR–in daxili inzibati rayonlarının kənd yerlərindən əhalinin Naxçıvan şəhərinə daimi miqrasiyası daha da sürətlənmişdir. Bu proses əsasən MR–in kənd yerlərində işsizlik probleminin və yaşayış səviyyəsinin aşağı olması ilə əlaqədardır.

Respublika daxili miqrasiya prosesində NMR–in ərazisindən köçənlərin əksəriyyəti Abşeron iqtisadi rayonunda (xüsusilə Bakı şəhərində) məskunlaşmışdır ki, bu da MR-də əhalinin sayının azalmasına səbəb olmuşdur.

Həmin dövrdə (1999–2010–cu illər) Naxçıvan Muxtar Respublikasndan Bakı şəhərinə gedənlərin ümumi sayı 8711 nəfər olmuşdur (cədvəl 1).

Naxçıvan Muxtar Respublikasından Bakı şəhərinə daimi yaşamağa gedənlərin sayı (nəfərlə)

Cədvəl 1.

| İllər / Rayonlar | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Naxçıvan ş | 341 | 181 | 214 | 108 | 231 | 129 | 210 | 105 | 192 | 185 | 129 | 217 |
| Şərur | 98 | 107 | 177 | 156 | 101 | 205 | 148 | 194 | 201 | 188 | 99 | 50 |
| Şahbuz | 83 | 61 | 74 | 78 | 72 | 69 | 64 | 58 | 62 | 57 | 51 | 59 |
| Culfa | 29 | 32 | 61 | 76 | 38 | 49 | 71 | 68 | 56 | 64 | 60 | 35 |
| Ordubad | 103 | 73 | 81 | 76 | 98 | 144 | 121 | 109 | 104 | 96 | 90 | 75 |
| Sədərək | 75 | 57 | 79 | 97 | 104 | 118 | 121 | 104 | 92 | 88 | 75 | 47 |
| Babək | 105 | 79 | 86 | 101 | 83 | 97 | 109 | 104 | 92 | 73 | 45 | 43 |
| Kəngərli | - | - | - | - | - | - | 13 | 9 | 11 | 14 | 7 | 20 |
| NMR | 834 | 590 | 772 | 692 | 727 | 811 | 857 | 751 | 810 | 765 | 556 | 546 |

**Mənbə**: NMR-in Daxili İşlər Nazirliyinin qeydiyyat şöbəsinin məlumatları əsasında hesablanmışdır

NMR-in inzibati rayonlarında daimi miqrasiyanın göstəricisi eynilik təşkil edir. Belə ki, rayonlar üzrə köçüb gedənlərin sayı bura gələnlərin sayından çox olmuşdur. Əvvəlki illərdə buraya gələnlərin sayı az olsa da, son illər bu göstəricidə nisbətən artım müşahidə edilmişdir.

Son illər NMR-də "kəfkirvarı miqrasiya" prosesi də intensiv şəkildə müşahidə olunur. NMR-in geosiyasi mövqeyi, hər tərəfdən xarici ölkələrlə həmsərhəd olması və s. onun iqtisadiyyatının inkişafına mənfi təsir göstərir. İstehsal sahələrinin qeyri-bərabər yerləşməsi gündəlik miqrasiyanın istiqamətlərinin birtərəfli olmasını şərtləndirir.

Bütün bunları nəzərə alaraq MR-də “kəfkirvarı miqrasiya"nın müasir vəziyyətini, bu sahədə mövcud olan problemləri və inkişaf istiqamətləri ilə bağlı real məlumatlar əldə etmək məqsədilə sosioloji sorğu aparılmışdır (2011-ci ildə). Sorğu ümumi MR əhalisi üzrə hər bir inzibati rayonda 500 nəfər olmaqla 4000 nəfər arasında həyata keçirilmişdir. Buraya əsasən 15-45 və yuxarı yaşda olan əhali daxildir. Keçirilmiş sorğunun nəticələrinə əsasən inzibati rayonlar üzrə “kəfkirvarı miqrasiya”nın vəziyyəti müxtəlif olmuşdur.

Apardığımız tədqiqatdan belə nəticəyə gəlmək olar ki, NMR üzrə “kəfkirvarı miqrasiya” prosesi əsasən istehsal müəsisələrinin daha çox cəmləşdiyi şəhər və inzibati rayon mərkəzləri ilə ətraf yaşayış məntəqələri

arasında həyata keçirilir. Bu prosesdə iştirak edənlərin əksəriyyəti (1161 nəfər) dövlət müəssisələrində çalışanlardır. Onlar arasında orta təhsili olanlar (56,2%) üstünlük təşkil edir. Yaş və cins tərkibinə görə isə əksəriyyəti (55,7%) 25–45 yaş qrupuna daxildir, kişilərin sayı (68,6%) üstündür.

"Kəfkirvarı miqrasiya"nın istiqaməti bütün inzibati rayonlardan (Sədərək istisna olmaqla) Naxçıvan şəhərinə doğru yönəlmişdir. Bu proses Babək-Naxçıvan və Şahbuz-Naxçıvan arasında daha qabarıq özünü göstərir (şəkil 3).

Bütün inzibati rayonlarda bu proses əsasən şəhərlər və inzibati rayon mərkəzləri ilə rayondaxili yaşayış məntəqələri arasında müşahidə olunur. "Kəfkirvarı miqrasiya"nın göstəricisinə gəldikdə isə bu (Naxçıvan şəhəri istisna olmaqla 361 nəfər) Babək (255 nəfər), Kəngərli (234 nəfər) və Şahbuz (233 nəfər) rayonlarında daha çox müşahidə olunur.

"Kəfkirvari miqrasiya" demoqrafik proseslərə bilavasitə təsir göstərir. Belə ki, uzun müddət başqa ərazidə işləyən əhali sonradan həmin əraziyə daimi miqrasiya edir.

Aldığımız nəticələr göstərir ki, NMR–də əhalinin iş yerləri ilə təmin olunmasında problemlər mövcuddur. Bu problemlərin aradan qaldırılması üçün son illər iqtisadiyyatın inkişafı istiqamətində bir sıra tədbirlər görülmüşdür. Lakin yaradılmış yeni müəssisələr də əhalinin işlə təminatını tam ödəmir. Buna görə də, bu problemin həlli məqsədilə xarici investisiya qoyuluşunun artırılmasını məqsədəuyğun hesab edirik.

Tədqiqat işinin **"Miqrasiya siyasətinin əsas perspektiv istiqamətləri"** adlanan IV fəslində əhalinin miqrasiyasına təsir edən amillər tədqiq olunmuş, miqrasiya və onunla əlaqədar demoqrafik proseslərin tənzimlənməsində miqrasiya siyasətinin həyata keçirilməsi, konsepsiyalar, dövlət proqramları, miqrasiya siyasətinin istiqamətləri, vəzifələri, və s. NMR-in timsalında araşdırılmışdır.

Muxtar Respublikada əhalinin miqrasiyasına təsir edən əsas amil iş yerlərinin artımının iş qüvvəsinin artımından geri qalması, əhalinin enerji və istilik ilə (son illərdə tam təmin olunmuşdur) təmin olunmamasıdır. Buna görə də həmin əhali qısa müddətli olsa da müvvəqəti işləmək üçün digər regionlarda pul qazanıb muxtar respublikada yaşayan ailəsi üçün göndərməklə regionda məskunlaşmaya müsbət təsir edirlər.

NMR-in Azərbaycan Respublikasının digər regionları ilə nəqliyyat əlaqələrinin zəifliyi iqtisadiyyatının inkişafına mənfi təsir göstərir. Ərazinin və əhalinin nəqliyyatla təmin olunması iqtisadi rayon daxilində mövcud

təbii və əmək ehtiyatlarının istehsal dövrüyyəsinə cəlb olunmasına, istehsal sahələrinin yaranmasına və bu zəmin üzərində iqtisadi əlaqələrin formalaşmasına təsir göstərən əsas amillərdəndir.

NMR-in iqtisadiyyatının çoxsahəli (sənaye və aqrar-sənaye) struktura malik olması onun Azərbaycan Respublikasının ərazisindən təcrid edilmiş coğrafi məkanda yerləşməsi və bununla əlaqədar burada yerli tələbatı müvafiq istehsal sahələri yaratmaq hesabına təmin etmək zərurəti ilə izah olunur.

Erməni təcavüzü nəticəsində blokada şəraitində olan MR-də yerli istehsal həcmi azalmaqla İran və Türkiyədən idxalın hesabına gündəlik tələbat üçün ərzaq və qeyri-ərzaq məhsullarının intensiv axını burada formalaşan kadr və texniki vəsaitlərin ixracına, bu da öz növbəsində əhalinin məşğuliyyətində deformasiya yaratmaqla, əhalinin miqrasiyasına, onun Rusiya və Türkiyəyə işlə təmin olunmaq üçün axınına səbəb olmuşdur.

Ümumiyyətlə, miqrasiya prosesləri demoqrafik proseslərə təsir göstərməklə özü bu prosesin nəticəsi kimi formalaşır. Belə ki, doğum və təbii artımın yüksək olduğu ərazilərdə gedənlərin sayının çox olması, əks prosesdə isə gələnlərin sayının (işçi qüvvəsinin çatışmaması ilə əlaqədar və s.) artıqlığı müşahidə olunur. Buna səbəb isə MR - də iş yerlərinin artımının əhali artımından geri qalması və qeyri-bərabər yerləşməsidir. Əhalinin təbii artımı, məşguliyyəti və yaş tərkibi, yaşayış vasitələri ilə təminat səviyyəsi onun iqtisadi–sosial parametrlərini yaratmaqla miqrasiyasına bilavasitə təsir edir.

Müstəqilliyin ilk illərində Azərbaycanda miqrasiya proseslərinin dinamikası və təkamülündə ilk dəfə ciddi dəyişikliklərin baş verməsi, İEÖ-ə xas yeni meyllərin yaranması müşahidə olunurdu. Məcburi miqrasiya tamamilə dayandırıldı, iqtisadi faktorlu miqrasiyanın əsası qoyuldu. Miqrasiya proseslərinin həm forma, həm motiv, həm də mahiyyət baxımından dəyişməsi başlanğıcını götürdü. Miqrasiya siyasətinə aid konsepsiyaların, dövlət proqramlarının, qanunların qəbul olunmasına və icrasına 2003-cü ildən başlanıldı.

Azərbaycan Respublikasının 2007–ci il 23 may tarixdə qəbul olunmuş “Milli Təhlükəsizlik Konsepsiyası”nda dövlətin miqrasiya siyasəti “Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri” sırasına daxil edilmişdir və DMX yaradılmışdır. Azərbaycan Respublikasından fərqli olaraq NMR-də Miqrasiya Xidməti Şöbəsi 2005-ci

ildə DİN-nin nəzdində yaradılmış və 2010-cu ildən ehtibarən isə müstəqil dövlət orqanı kimi fəaliyyət göstərməyə başlamışdır.

2006–cı ildə qəbul olunmuş “Azərbaycan Respublikasının DMP (2006–2008–ci illər)”na uyğun olaraq NMR–də miqrasiya siyasətinin həyata keçirilməsi, miqrasiya idarəetmə sisteminin inkişaf etdirilməsi, miqrasiya proseslərinin tənzimlənməsi və proqnozlaşdırılması, qanunların tətbiqinin effektliyinin təmin edilməsi, qeyri–qanuni miqrasiyanın qarşısının alınması, miqrantlarla bağlı sosial müdafiə tədbirlərinin həyata keçirilməsi və s. nəzərdə tutulmuşdur.

Regionda daxili miqrasiya axınlarının tənzimlənməsi ilə bağlı tədbirlər “Azərbaycan Respublikası Regionlarının sosial–iqtisadi inkişafı (2004–2008, 2009-2013–cü illər) Dövlət Proqramları”nda təsbit edildiyindən, hazırkı dövlət proqramında əsas diqqət xarici miqrasiya proseslərinin tənzimlənməsinə yönəldilmişdir.

NMR-də SSRİ-dövründə fəaliyyət göstərən təsərrüfat obyektlərində məşğul olanların sayı 9,3 min nəfər təşkil edirdi (1988-ci il).




Şəkil 3. Naxçıvan Muxtar Respublikası iqtisadi inkişaf xəritə sxemi (2013-cü il)

Tərtib etdi: H.M.Tahirova

Müstəqilliyin ilk illərində təsərrüfat obyektlərinin fəaliyyətinin dayanması iş yerlərinin bağlanması ilə nəticələndi. Bu da miqrasiya proseslərinin intensivləşməsinə səbəb oldu. 2004-2008 və 2009-2013-cü illərdə Dövlət Proqramları əsasında yaradılmış yeni müəssisə və təşkilatlarda açılmış iş yerləri miqrasiya proseslərinin əvvəlki illərə nisbətən azalmasına şərait yaratmışdır. 2004-2008-ci illərdə Dövlət Proqramı əsasında 37,1 min yeni iş yeri açılmışdır ki, onların 7,6 mini yeni yaradılmış müəssisə və təşkilatların payına düşür (şəkil 3).

2009-2013-cü illərdə isə cəmi 20,8 min iş yeri açılmış, onlardan 0,8 mini yeni yaradılmış müəssisə və təşkilatlarda cəmlənmişdir. Gələcəkdə tənəzzülə uğramış təsərrüfat obyektlərinin bərpası, yenilərinin yaradılması və xarici (Türkiyə və İsrail) investsiya hesabına dağ-mədən sənayesinin inkişaf etdirilməsi istiqamətində aparılan işlər burada iqtisadiyyatın inkişafında əsaslı rol oynamaqla, əhalinin məğulluq probleminin həll edilməsi istiqamətində əhəmiyyətli addım olacaqdır. Bütün bunlar isə MR-də əhalinin miqrasiyasının və demoqrafik proseslərin nizamlanmasına müsbət təsirini göstərməkdədir.

Miqrasiya siyasətinin ən mühüm istiqamətlərindən biri NMR-dən əmək miqrasiyası məqsədilə xaricə gedən miqrantların hüquqlarının müdafiəsi, vaxtaşırı baş verən və xarici dövlətlər tərəfindən həyata keçirilən yeni miqrasiya rejimləri adlanan bəzən zəruri, bəzən isə qərəzli tədbirlər nəticəsində vətənə qayıdan miqrantların problemlərinin tənzimlənməsidir.

Azərbaycan Respublikasının regionlarında, həmçinin də Muxtar Respublikada "beyin axını"nın qarşısının alınması yeni miqrasiya siyasətinin əsas prinsiplərindən birini təşkil edir.

Müstəqilliyin ilk illərində regionda miqrasiya prosesi müəyyən dərəcədə siyasi, milli və etnik xarakter daşıyırdısa, sonrakı illərdə onun başlıca səbəbini sosial, iqtisadi və demoqrafik motivlər təşkil etmişdir. Əgər 90-cı illərdə əmək miqrasiyası Naxçıvan Muxtar Respublikası vətəndaşlarının xarici ölkələrə axını ilə xarakterizə olunurdusa, hazırkı dövrdə regiondakı sosial-iqtisadi və siyasi inkişaf xaricə miqrasiya axınını nisbətən azaltmışdır.

Miqrasiya siyasəti dövlətin və cəmiyyətin diqqət mərkəzində duran prioritet məsələdir. Bu isə öz növbəsində sadəcə miqrantların gediş və gəlişinin intensivləşməsi deyil, miqrasiyanın idarə olunmasının optimal modelinin seçimi kimi sosial, iqtisadi və demoqrafik məsələdir.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Naxçıvan Muxtar Respublikasında miqrasiyanın demoqrafik proseslərin formalaşmasına təsirinin iqtisadi-coğrafi və sosial problemlərini tədqiq edərkən aşağıdakı nəticə və təkliflər verilmişdir.

1. Miqrasiya idarə edilməsi, tənzimlənməsi zəruri olan ictimai-siyasi və demoqrafik prosesdir. XXI əsrdə miqrasiya fenomeninin ən mühüm, yeni və prioritet istiqamətlərindən biri "miqrasiya-inteqrasiya və adaptasiya" problemidir. Miqrantların yaşayış üçün seçdikləri ölkənin cəmiyyətinə, iqtisadi, sosial-mədəni həyatına inteqrasiyası bu gün dünyanın əksər ölkələrində həlli vacib sayılan problemlərdən biridir.

2. Azərbaycanda, o cümlədən də NMR-də əhalinin miqrasiya siyasəti SSRİ dövründə MDB ölkələri ilə eynilik təşkil etmişdir. Müasir qloballaşma dövründə AR-da miqrasiya siyasəti dünya ölkələrində olduğu kimi aparılmalıdır. Buna görə də respublikada, o cümlədən də NMR-də miqrasiya proseslərinin təkmilləşdirilməsi prosesində dünya ölkələrinin təcrübəsini öyrənərək dövlət strategiyasını müəyyən etmək zəruridir.

3. Tədqiq olunan dövrdə NMR-də (1999-2012-ci illər) sosial-iqtisadi vəziyyətin çətinliyi, həyat səviyyəsinin aşağı və işsizliyin yüksək olması ilə əlaqədar əhalinin xarici ölkələrə miqrasiyasının sürətlənməsi demoqrafik proseslərin, o cümlədən cins-yaş strukturunun pozulmasına, nikahların azalmasına, bu da öz növbəsində doğum və təbii artım proseslərinə öz mənfi təsirini göstərmişdir.

4. Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, NMR-də əhalinin xaricə miqrasiyası əsasən 1992-ci ildən intensiv xarakter almışdır. Miqrasiyanın əsas istiqamətləri Türkiyə Respublikasına, MDB ölkələrinə (əsasən Rusiyaya), İran İslam Respublikasına və digər ölkələrə olmuşdur. Son bir neçə ildə əhalinin xarici ölkələrə (xüsusilə də Türkiyə Respublikasına) miqrasiyası azalmışdır, əvvəlki illərdən fərqli olaraq xarici ölkələrdən də buraya miqrantlar gəlir. Son 12 il ərzində NMR-ə gəlmiş 2,4 min nəfərdən 1,6 min nəfəri (65,1%) MDB ölkələrinin (xüsusilə də RF-in) payına düşür.

5. Tədqiq edilən dövrdə (1999-2012-ci illər) NMR-dən MDB və xarici ölkələrə 93,3 min nəfər əhali miqrasiya (əmək miqrasiyası) etmişdir ki, bunun da 84,6 min nəfəri (90,7%) Türkiyənin, 7,6 min nəfəri (8,1%) MDB ölkələrinin, qalan 1,1 min nəfəri (1,2%) digər ölkələrin payına düşür. NMR-dən xarici ölkələrə miqrasiya edənlərin əksəriyyəti müvəqqəti olaraq işləmək məqsədilə gedən əmək qabiliyyətli kişilərdir (65%).

Miqrasiya saldosunun 1999-cu ilə (-9,5 min nəfər) nisbətən 2012-ci ildə (-5,0 min nəfər) təqribən 2 dəfə azalmasına səbəb sosial-iqtisadi vəziyyətin yaxşılaşması, yeni iş yerlərinin açılması, regionun istilik və enerji ilə tam təmin olunması, xüsusilə kənd yerlərində sosial infrastrukturun bərpa edilməsi olmuşdur.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı potensialının istifadəsində dövlət himayəçilik siyasətinin və beynəlxalq iqtisadi qrupların imkanlarından istifadə etməklə kənd yerlərində işsizlik probleminin aradan qaldırılmasına şərait yaradılması məqsədəuyğundur.

6. Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, NMR-də əhalinin daimi miqrasiyası əsasən inzibati rayonlar ilə Naxçıvan şəhəri və MR ilə Bakı şəhəri arasındadır. 1999-2010-cu illərdə Bakı şəhərindən MR-ə gələnlərin sayı 1,3 min nəfər, gedənlərin sayı isə 8,7 min nəfər olmuşdur. Bu isə gedənlərin sayından 6,6 dəfə azdır. Regionun sərhədyanı ərazilərinin potensialından və xarici-iqtisadi əlaqələrin imkanlarından istifadə etməklə kənd təsərrüfatı sahələrinin inkişafı, təbii sərvətlərdən səmərəli istifadə və əmək ehtiyatlarının maksimal istifadəsini təşkil etmək olar.

7. Tədqiqat prosesində 4 min nəfər arasında aparılmış sorğunun nəticələrinə əsasən müəyyən olunmuşdur ki, MR üzrə ümumi respondentlərin 1482 nəfəri "kəfkirvarı miqrasiya" prosesində iştirak edirlər. NMR-də təsərrüfat sahələrinin qeyri-bərabər yerləşməsi, xüsusilə də Naxçıvan şəhərində cəmlənməsi bu prosesin bir tərəfli olması ilə nəticələnir. "Kəfkirvarı miqrasiya"nın əsas istiqamətləri inzibati rayonlardan Naxçıvan şəhərinə doğrudur. Bu proses Babək-Naxçıvan və Şahbuz-Naxçıvan şəhəri arasında daha intensiv müşahidə olunur. Səbəb isə bu inzibati rayonların yaxın məsafədə yerləşməsi və rayon mərkəzlərində sosial-iqtisadi bazanın zəif olmasıdır.

8. Son illərdə bütün regionlarda olduğu kimi NMR-də də daxili miqrasiyanın, o cümlədən də rayon və kəndlərdən əhalinin şəhərlərə axınının tənzimlənməsində, inzibatı rayonların iqtisadi inkişafının sürətləndirilməsində "Azərbaycan Respublikası regionlarının sosial–iqtisadi inkişafı (2004–2008, 2009-2013–cü illər) Dövlət Proqramlar"ı önəmli rol oynamaqdadır. NMR-də miqrasiya proseslərinin tənzimlənməsində sosial-iqtisadi vəziyyət, regionun geosiyasi mövqeyi, blokada şəraitində olması, nəqliyyat və xarici ticarət əlaqələri, yeni iş yerlərinin açılması, təbii sərvətlərdən səmərəli istifadə, kənd təsərrüfatının, turizm sahələrinin inkişafının və s. nəzərə alınması zəruridir.

9. NMR-də əmək miqrasiyasının tənzimlənməsi, regiondan "beyin axını"nın və qeyri-leqal miqrasiyanın qarşısının alınması, ixtisaslı kadr potensialının regiona cəlb olunması və s. tədbirlərin həyata keçirilməsi xarici miqrasiya proseslərinin nizamlanması mühüm rol oynamaqla yanaşı, regionun davamlı sosial-iqtisadi və demoqrafik inkişafının təmin edilməsinə də öz müsbət təsirini göstərə bilər.

**Dissertasiya işinin əsas nəticələri aşağıdakı əsərlərdə dərc olunmuşdur:**


1.Tahirova H.M. NMR-də demoqrafik vəziyyətin təhlili / Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri. XIV cild, 2009, s. 248–250.

2.Tahirova H.M. NMR-in əhalisinin məskunlaşmasına təsir edən amillər / Azərbaycan Coğrafiya Cəmiyyətinin BDU Filialının əsərləri. III cild, Bakı, 2010, s. 365-370.

3.Tahirova H.M. NMR-də “kəfkirvarı miqrasiya”nın müasir vəziyyəti // BDU-nun Xəbərləri. Təbiət elmləri seriyası, 2011, № 4, s. 176-185 (Əfəndiyev V.Ə ilə birlikdə).

4.Tahirova H.M. Miqrasiya proseslərinin NMR-in demoqrafik vəziyyətinin tənzimlənməsinə təsiri // BDU-nun Xəbərləri. Təbiət elmləri seriyası, 2011, № 2, s. 173-181.

5.Tahirova H.M. NMR-də miqrasiya proseslərinin formalaşmasına təsir edən amillər / Doktorantların və gənc tədqiqatçıların XVI respublika elmi konfransının materialları. Bakı, 2012, s. 101 - 104.

6.Tahirova H.M. NMR-də miqrasiya siyasətinin təkmilləşdirmə istiqamətləri / Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri. XVII cild, Bakı, 2012, s. 395-400.

7.Tahirova H.M. Qloballaşma dövründə Azərbaycanda miqrasiya siyasətinin təkmilləşmə istiqamətləri / Qloballaşma və coğrafiya mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2012, s. 695-700.

8.Tahirova H.M. NMR-in sosial-iqtisadi inkişafı və ekoloji problemləri / Ekologiya təbiət və cəmiyyət problemləri mövzusunda II beynəlxalq elmi konfransın materialları. Bakı, 2012, s. 128-129.

9.Таирова Х.М. Влияние демографических процессов на миграцию населения Нахчыванской Автономной Республике / Современные гуманитарные исследования. Москва, 2012, № 6, с. 171-175.

10.Tahirova H.M. Naxçıvan Muxtar Respublikasının respublikalararası miqrasiya proseslərində yeri / “Heydər Əliyev və Azərbaycan coğrafiya elminin inkişafı” mövzusunda respublika elmi konfransın materialları. Bakı, 2013, s. 218- 221.

11.Tahirova H.M. Naxçıvan Muxtar Respublikasında şəhər və kənd əhalisinin təbii artım proseslərinin ərazi fərqləri // BDU-nun Xəbərləri. Təbiət elmləri seriyası, 2013, № 1, s. 174-180.

12.Tahirova H.M. Müstəqillik dövründə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluq problemləri / "Müstəqillik illərində Coğrafiya elminin inkişafı" mövzusunda respublika elmi konfransın materialları. Bakı, 2013, s. 320-324.

**Таирова Хиджиран Мирахмет кызы**

# ЭКОНОМИКО-ГЕОГРАФИЧЕСКИЕ ПРОБЛЕМЫ ВЛИЯНИЯ МИГРАЦИИ НА ДЕМОГРАФИЧЕСКИЕ ПРОЦЕССЫ
## (на примере Нахчыванской Автономной Республики )

## Резюме

В переходный период снижение уровня жизни, занятости и увеличение миграционной подвижности отрицательно влияли на рождаемость, браки и темпы роста численности населения.

В первой главе анализируется возникновение, классификации, направлении миграционных потоков в разных странах, межрегиональная миграция, миграционные процессы между развитыми и развивающимися странами, факторы оказывающие влияние на интенсивность современных миграционных процессов, миграционная политика стран. Были обобщены исследование зарубежных и азербайджанских ученых в область миграции.

Во второй главе анализируется расселение населения и исторические этапы демографического развития населения Нахчыванской Автономной Республики, динамика численности населения, показатели естественного движения населения и факторы оказывающие на него влияние, анализируется брачки и разводы по городским и сельским поселениям.

В третьей главе анализируется участие и особенности совроменнвх миграционных процессов Нахчыванской Автономной Республики, причины внешней миграции и её направления. В НАР были исследованы направления и причины внутренней ("маятниковой" миграции и потоков населения из сел в города) миграции в административных районах.

В четвертой главе были рассмотрены факторы влияющие на миграцию населения в Нахчыванской Автономной Республике, реализация процесса регулирования миграционной политики, анализ принятых концепций и государственных программ, приоритетные направления миграционной политики. Основные принципы и задачи на примере Нахчыванской Автономной Республики.

По теме диссертации опубликовано 12 научных работ.

**Tairova Hijran Mirahmad qızı**

**ECONOMIC – GEOGRAPHICAL PROBLEMS OF INFLUENSION TO THE DEMOGRAPHIC PROCESSES OF MIGRATION (in the sample of Nakhichevan Autonomous Republic)**

## Summary

The decrease of living standard, employment and increase of migratory movement exerted negative influence on birth-rate,marriage-rate and rate of growth of the numbers of population in the transition period.

In the first chapter has analyzed the creation of migration, appearance of conception of migration, classification, direction of migration stream in the different periods, interregional migration, migration processes among Developed countries and Developing countries, influential factors to the intensification of migration processes in the modern period, the migration processes of countries, thoughts about the migration of present days and future by Azerbaijan and the world's investigators.

In the second chapter has analyzed the settlement of population of Nakhichevan Autonomous Republic growth processes and the historical development periods of demographic position, dynamics of quantity of population, natural movement indicators of population and the influential factors to them and the birth, death and natural growth processes on cities and villages.

In the third chapter has investigated the participation and characteristics of Nakhichevan Autonomous Republic in the processes of interrepublic migration, the reason of foreign migration and their directions. Here also investigated the reasons and directions of internal migration ("scummy" migration and flowing of population from villages into cities) on each administrative region in NAR.

In the fourth chapter has searched the influential factors to the migration of population in Nakhichevan Autonomous Republic, also investigated the realization of migration policy in the regulation of migration processes, adopted conceptions and analyzing of state programs, the priority directions of migration policy, main duties, principles and etc. in the instance of Nakhichevan Autonomous Republic.

12 articles have been published on the theme.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ГЕОГРАФИИ им. акад. Г.А.АЛИЕВА**

*На правах рукописи*

**ТАИРОВА ХИДЖИРАН МИРАХМЕТ кызы**

# ЭКОНОМИКО-ГЕОГРАФИЧЕСКИЕ ПРОБЛЕМЫ ВЛИЯНИЯ МИГРАЦИИ НА ДЕМОГРАФИЧЕСКИЕ ПРОЦЕССЫ
**(на примере Нахчыванской Автономной Республики )**

5401.01-Экономическая география

# А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по географии

**БАКУ-2014**